6.Nazaryan A.G. Müasir fransız dilinin frazeologiyası. M.: Ali məktəb, 2007.
7. Danışıq Fransız dili. Nitq formulları. Dərslik /Comp., red.,trans. P.Gelevs.– M.: Filomatis, 2015

## AZƏRBAYCANDA SOSIAL SAHIBKARLIĞIN MÖVCUD VƏZIYYƏTI

*Nəsibova Arifə Carı qızı*
*Mingəçevir Dövlət Universiteti*

Sosial sahibkarlıq fenomeni Azərbaycan üçün də yenidir. Bu sahədə təşəbbüslər son illərdə artmaqdadır, lakin sosial sahibkarlıqla bağlı ayrıca qanunvericilik aktı olmadığından bu və ya digər təşəbbüsün sosial sahibkarlıq kimi qiymətləndirilməsi çətindir. Doğrudur, mövcud qanunvericilikdə sosial müəssisələrlə bağlı müəyyən müddəalar mövcuddur, lakin hesab edirik ki, həmin müddəalar sosial sahibkarlıq münasibətlərini tam tənzimləmək gücündə deyil.

Sosial müəssisə anlayışı «Məşğulluq haqqında» Azərbaycan Respublikası Qanununda öz əksini tapıb. Qanunun 1.1.20-ci maddəsinə əsasən, sosial müəssisə – sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün yaradılan ixtisaslaşdırılmış hüquqi şəxsdir. Qanun sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin dairəsinə əlilliyi olan şəxsləri, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları, 20 yaşadək gəncləri, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynləri, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları tərbiyə edən valideynləri, pensiya yaşına iki ildən az qalmış şəxsləri, cəzaçəkmə yerlərindən azad edilmiş şəxsləri, məcburi köçkünləri aid edir. Digər qanunvericilik aktı - "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin standartları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı sosial müəssisələrin standartlarını müəyyənləşdirir. Qərara əsasən sosial müəssisələrin standartları aşağıdakılardır: - işçilərin orta illik sayının azı 80 faizini Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli məşğulluq qurumları və ya "DOST" mərkəzlərinin göndərişi ilə işə qəbul olunmuş sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər - əlilliyi olan şəxslər, 20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları tərbiyə edən valideynlər, pensiya yaşına iki ildən az qalmış şəxslər, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslər, məcburi köçkünlər (bundan sonra – Şəxslər) təşkil edirlər; - Şəxslərə məşğulluq imkanlarının artırılması üçün iş yerində təlim, o cümlədən peşəyönümü və peşəhazırlığı istiqamətində məsləhət xidmətləri göstərir; - Şəxslərin peşə-əmək reabilitasiyası ilə bağlı tədbirləri həyata keçirir.

Göründüyü kimi, qanunvericilik sosial müəssisə anlayışını sırf məşğulluq kontekstində nəzərdən keçirir, halbuki beynəlxalq təcrübədə sosial sahibkarlığın əhatə dairəsi xeyli genişdir. Digər tərəfdən, sosial sahibkarlıq sahəsində münasibətlərin daha dəqiq tənzimlənməsinə, sosial müəssisələrin daha aydın prinsiplər və meyarlar əsasında fəaliyyəti üçün zəruri hüquqi bazanın

formalaşdırılmasına ehtiyac var ki, mövcud qanunvericilk bunu təmin etmək iqtidarında deyil. Aydın hüquqi tənzimləmə həm də ona görə vacibdir ki, sosial sahibkarlığın stimullaşdırılması üçün bir sıra güzəştlər, o cümlədən vergi güzəştləri tətbiq etmək mümkün olsun. Hazırda Vergi Məcəlləsində müxtəlif vergi növləri üzrə güzəştlər mövcuddur. Həmin güzəştlər sosial sahibkarlara da onlardan faydalanmaq imkanı versə də, həmin güzəştlər bilavasitə sosial sahibkarlar üçün nəzərdə tutulmayıb. Vergi Məcəlləsində müəyyən edilmiş güzəştlərlə bağlı bəzi müddəalara diqqət yetirsək, bunu aydın görə bilərik. Vergi Məcəlləsinin 102-ci maddəsi gəlir vergisindən güzəştləri nəzərdə tutur. Məsələn, mikro və ya kiçik sahibkarlıq subyekti olan və fərdi sahibkar kimi fəaliyyət göstərən startapların "Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlir – 3 il müddətinə gəlir vergisindən azaddır. Digər bir misal: Məcəllənin 106.2-ci maddəsinə əsasən, əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlilliyi olan şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır. Eləcə də ƏDV, sadələşdirilmiş vergi və s. vergilərdə də müəyyən güzəştlər nəzərdə tutulur.

Lakin yuxarıda qeyd etdiyimiz kimi, bu güzəştlər bilavasitə sosial sahibkarlar üçün müəyyən edilmiş güzəştlər deyil. Azərbaycanda sosial sahibkarlığa xüsusi dəstək mexanizmləri müəyyənləşdirilməyib. Bu istiqamətdə fəaliyyət göstərən xüsusi institusional vahidlər də mövcud deyil. Növbəti hissədə xarici ölkələrin nümunələrində sosial sahibkarlığa dəstək mexanizmləri ilə tanış olacağıq. Onlardan Azərbaycan təcrübəsində də istifadə faydalı olardı. Bununla yanaşı onu da qeyd edək ki, Azərbaycanda bilavasitə sosial sahibkarlar üçün nəzərdə tutulmasa da, onların da yararlana biləcəyi müəyyən institusional təsisatlar var. Bunlardan biri də Startup Azərbaycan layihəsidir. Startup Azərbaycan layihəsinin əsas məqsədi ölkədə İKT sektorunda investisiya mühitini yaxşılaşdırmaq, ən yaxşı İnternet və İT layihələrini üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə yardım etməkdir. Layihə çərçivəsində startapçılar üçün təlimlər təşkil olunur, investorlarla görüşlər keçirilir. Startaplara komanda formalaşdırmağa köməklik göstərilir. İnternet biznesə başlamaq istəyənlər üçün layihə çərçivəsində keçirilən təlimlərdə uğurlu bizneslə bağlı bilik və təcrübə əldə etmək imkanları yaradılır. Startap Azərbaycan komandası uğurlu hesab ediləcək layihələrin investorlara təqdim edilməsində və investor axtarışında seçilmiş satartaplara köməklik edir. Həmçinin investorlar üçün cəlbedici layihələrə əlçatımlığın təmin edilməsi istiqamətdə fəaliyyət göstərir. Qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi məqsədilə startap görüşləri və müzakirələri təşkil olunur. Startap Azərbaycan qaliblərə simvolik mükafatlar təqdim etsə də, layihələrin birbaşa maliyyələşməsi onların investorlara və müxtəlif fondlara təqdim edilməsiylə həyata keçirilir. Göründüyü kimi, Azərbaycanda sosial sahibkarların da faydalana biləcəyi müəyyən mexanizmlər olsa da, sosial sahibkarlığın böyük ölçüdə inkişafını təmin edə biləcək hüquqi və institusional mexanizmlər hələ yaradılmayıb. Təbii ki, ilk növbədə hüquqi müəyyənliyin təmin edilməsi, zəruri qanunvericilik bazasının formalaşdırılması məqsədəuyğundur. Azərbaycanda sosial sahibkarlıqla bağlı ən ciddi problemlərdən biri bu fenomenlə bağlı kifayət qədər məlumatlılığın olmamasıdır. Bəzi hallarda fəaliyyəti sosial

sahibkarlıq xarakteri daşıyan şəxslər belə, həyata keçirdiyi fəaliyyətin əslində sosial sahibkarlıq fəaliyyəti olduğunun bilmirlər. Sosial sahibkarlarla apardığımız müzakirələrdə iştirak edən sosial sahibkarların bir çoxu bunu etiraf edib. Sosial sahibkarlıq sektoru hələ zəif inkişaf etdiyindən sosial sahibkarların assosiasiyalaşması prosesi də hələ başlamayıb. Halbuki sosial sahibkarların assosiasiyalarda birləşməsi onların imkanlarını əhəmiyyətli dərəcədə artıra bilər. Hesab edirik ki, sosial sahibkarlığın inkişafı bu prosesi qaçılmaz edəcək. Bütün mövcud problemlərə baxmayaraq, Azərbaycanda mahiyyət etibarı ilə sosial sahibkarlıq xarakteri daşıyan təşəbbüslər var və onlar artmaqdadır. Ümid edirik ki, zəruri hüquqi və institusional islahatlar nəticəsində təqdim edəcəyimiz nümunələrin sayı çoxalacaq və onlar Ölkəmizin sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfələr verəcək.

Ədəbiyyat:

1. The impact of social entrepreneurship on economic growth. Financier Worldwide Magazin. May 2020.

2. Yunus M. Creating a World without Poverty. New York: Public Affairs, 2007.

## UŞAĞIN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA MÜƏLLİMİN ROLU

*Nəcəfova Günel Alim*
*Mingəçevir Dövlət Universiteti*

Bütün peşələr gözəldir. Amma, bütün peşələri və peşə sahiblərini yetişdirən bir peşə vardır ki, onsuz heç bir sənət, peşə öyrənilmir. Bu peşə müəllimlik peşəsidir.

Müəllimlik peşəsi haqqında görkəmli şəxsiyyətlərin fikirləri vardır. Mehriban davranışı, öyrənənlərinə olan münasibətilə daima sayılıb-seçilən olmalıdır- müəllim.

Öyrədənlə öyrənənlər arasındakı münasibət pedaqogika elminin əsas məsələlərindən biridir. Təlim-tərbiyə işinin lazımi səviyyədə təşkili ,problemin həlli yollarının öyrənilməsindən asılıdır.

Öyrədən öyrənənləri həm tərbiyə, həm də təlim zamanı yaxşı tanımalı, onların bir şəxsiyyət kimi formalaşması işini dövrün tələbləri səviyyəsində qurmalıdır. Əbəs yerə deməyiblər ki, öyrədən şəxsiyyətin mənəvi dünyasının qurucusudur. Öyrənən isə öyrədənin aynasıdır. Bu da bir həqiqətdir ki, hər bir öyrədən və tərbiyə edən öyrənənlərini xalqını, millətini, vətənini sevən, bacarıqlı şəxsiyyət kimi görmək istəyir. Bu istəyin gerçəkləşməsi üçün öyrədənlərin üzərinə böyük bir məsuliyyət düşür. Bunun üçün səy göstərmək lazımdır. Vətəni, dövləti sevən, onu düşmənlərdən qorumağı bacaran şəxslər yetişdirmək böyük müəllim ordusunun üzərinə düşür. Bu baxımdan öyrədən öyrənənlərinə qarşı mehriban olmalıdır. [4,s.249]

Öyrədən-öyrənən arasındakı münasibətlərdə yalnışlığa yol verilsə, öyrənənlərinə qarşı obyektiv olmazsa, qiymət verərkən ədalətli olmazsa, o heç bir